**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT MİQRASİYA XİDMƏTİNİN RƏİSİ**

AZ-1114, Bakı şəhəri, Binəqədi rayonu
3123-cü məhəllə, Binəqədi şossesi 202

Tel.: 498 94 64, faks: 563 57 83
e-mail: info@migration.gov.az

**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının sədri**
**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim,**

Sizi və rəhbərlik etdiyiniz kollektivi Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, Palatanın ölkəmizin iqtisadi inkişafına xidmət edən fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayırıq.

Müasir və müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu yolunda yorulmaz səyləri və uzaqgörən siyasəti sayəsində ölkəmizdə şəffaf maliyyə və audit sistemi formalaşdırılmışdır. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və bu gün Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən qətiyyətli dövlətçilik strategiyası nəticəsində Azərbaycanda institusional inkişaf, şəffaflıq və hesabatlılığın təmin edilməsi sahəsində də mühüm nailiyyətlər əldə edilmiş, maliyyə nəzarəti və audit xidmətləri ölkənin iqtisadi idarəçiliyinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Şəffaflıq olmadan qazanılan iqtisadi uğurların davamlılığını və sosial tərəqqini təmin etmək mümkün deyil. Bu baxımdan auditor xidmətləri, bu xüsusda Auditorlar Palatasının fəaliyyəti şəffaf iqtisadi mühitin formalaşmasında və dövlət idarəetməsində etibarlı maliyyə nəzarətinin qurulmasında vacib rol oynayır.

Palatanın audit fəaliyyətinin təşkili, maliyyə intizamının gücləndirilməsi, peşəkar kadr potensialının formalaşdırılması və normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində həyata keçirdiyi planlı və sistemli tədbirlər, habelə auditor peşəsinin nüfuzunun artırılması, daxili audit xidmətinin təşkili və qabaqcıl beynəlxalq təcrübənin tətbiqi sahəsində əldə etdiyi nəticələr bizi sevindirir.

Auditorlar Palatasının dövlətimizin beynəlxalq nüfuzunun artırılması istiqamətində də həyata keçirdiyi fəaliyyət məmnunluq doğurur. Xüsusilə təqdirəlayiqdir ki, digər sahələrdə olduğu kimi bu istiqamətdə də ölkəmizdə həyata keçirilən davamlı islahatlar dünyanın nüfuzlu maliyyə qurumları və təşkilatları tərəfindən yüksək qiymətləndirilir. Palatanın beynəlxalq qurumlarla, o cümlədən Beynəlxalq Mühasiblər Federasiyası və Avropa Mühasiblər və Auditorlar Federasiyası ilə əməkdaşlığı Azərbaycanın bu sahədə beynəlxalq arenada layiqincə təmsil olunmasına şərait yaradır.

Auditorlar Palatası tərəfindən formalaşdırılmış metodoloji yanaşmalar və peşəkar təcrübə dövlət orqanlarının, o cümlədən Dövlət Miqrasiya Xidmətinin aidiyyəti istiqamətdə fəaliyyətinin möhkəmləndirilməsi, eləcə də daxili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi baxımından da mühüm əhəmiyyət daşıyır.

Yarandığı gündən Auditorlar Palatasının məqsədyönlü və ardıcıl fəaliyyətində, institusional şəkildə formalaşmasında, milli audit sisteminin inkişafında, habelə beynəlxalq standartlara uyğun peşəkar mühitin yaradılmasında Sizin rəhbər kimi rolunuz danılmazdır. Sizin rəhbərliyiniz altında Auditorlar Palatası qısa müddət ərzində dövlət maliyyə nəzarətinin gücləndirilməsinə, şəffaflıq və hesabatlılıq prinsiplərinin təşviqinə əhəmiyyətli töhfələr verən bir təsisat kimi formalaşmış və ötən dövr ərzində dövlət qurumları arasında öz layiqli yerini tutaraq nüfuzlu bir təşkilata çevrilmişdir.

Sizin iqtisadi sahədə elmi yaradıcılığınız təkcə mövcud elmi biliklərin zənginləşdirilməsinə deyil, eyni zamanda gənc tədqiqatçıların formalaşmasında önəmli rol oynamışdır. Ölkəmizdə audit sisteminin inkişafına və tənzimlənməsinə dair tədris vəsaitlərinin, metodiki tövsiyələrin və milli standartların hazırlanmasında, eləcə də onların praktikada uğurla tətbiqində göstərdiyiniz xidmətlər xüsusi əhəmiyyət kəsb edir. Bu fəaliyyətiniz Azərbaycan iqtisadi elminin və audit institutunun davamlı inkişafına dəyərli töhfə olmaqla yanaşı, əldə olunan bilik və təcrübənin gələcək nəsillərə ötürülməsində möhkəm elmi baza formalaşdırmışdır.

Əminik ki, Auditorlar Palatası qarşıdakı dövrdə də öz fəaliyyət istiqamətləri üzrə innovativ yanaşmaları, rəqəmsal audit alətlərinin genişləndirilməsi, beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi və institusional dayanıqlığın daha da möhkəmləndirilməsi ilə yeni uğurlara imza atacaqdır. Bu fəaliyyətlər eyni zamanda cənab Prezident tərəfindən müəyyənləşdirilmiş uzunmüddətli strateji hədəflərin, milli inkişaf prioritetlərinin və ölkəmizin davamlı tərəqqisinə xidmət edən əsas istiqamətlər üzrə tədbirlərin ardıcıl şəkildə reallaşdırılmasına əhəmiyyətli töhfə verəcəkdir.

Bir daha Sizi və Palatanın kollektivini Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, gələcək fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq!

**Hörmətlə,**

V. Huseynov

**Vüsal Hüseynov**